



## "Nizami Gəncəvi ili" başa çatdı

**"Nizami Gəncəvi ili" başa çatdı. Gəncə şəhəri 2021-ci ili 880 il əvvəl olduğu kimi, Nizami Gəncəvi şeirinin ab-havası ilə yaşadı, Nizami şeiri çətirləndi, Nizami nəsihət və hikməti səsləndi. Bir il ərzində dahi şair hər evin, hər ocağın "qonağı" oldu. Dünyanın müxtəlif ölkələrindən Nizamisevərlər Gəncəyə gəldi, şairin hikmətlərini dinlədi, səkkiz yüz səksən il əvvəl olduğu kimi, günəş yenə də sanki böyük şair Nizamini salamladı. Səkkiz yüz səksən il əvvəl olduğu kimi, yenə də gəncəlilər hər səhəri şeirlə açdılar.**

**Bəli, səkkiz yüz səksən il...**

**Bu yüz illərin burulğanında çox hadisələr, çox təlatümlər oldu, unuduldu, amma şeir yaşadı...**

**Bu yüz illərin keşməkeşindən doğan çox rəvayətlər, çox hekayətlər söyləndi, unuduldu, amma şeir yaşadı...**

**Şəhərə layla çalan Gəncəçayın nəğməli dodaqları çox müsibətlər pıçıldadı, unuduldu, amma şeir yaşadı...**

**Kəpəzin "sinəsi" yarıldı, Göygöl yarandı, bu şəhərin yaddaşına zəlzələnin faciəsi həkk olundu, unuduldu, amma şeir yaşadı...**

**Budur, bir dinlə, eşit yaşayan şairin səsini, duy "yaşayan" şeirin nəfəsini:**

**"Yüz il sonra sorsan: Bəs o hardadır?**
**Hər beyti səslənər: Burda, burdadır"**

# "YÜZ İL SONRA SORSAN, BƏS, O HARDADIR, HƏR BEYTİ SƏSLƏNƏR, BURDA, BURDADIR..."

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin bədii fikir salnaməsinə parlaq işıq saldı, onun indiyədək keçirilən yubileylərinin ideyasını, mahiyyətini özündə ehtiva etdirməklə yanaşı, Azərbaycan humanitar elminin, nizamişünaslığının qarşısında tamamilə yeni hədəflər müəyyənləşdirdi, Nizami yaradıcılığına istinadən multikultural istiqamətlər formalaşdırdı, bədii irsinin tədqiqi, təbliği və əsərlərinin nəşrində yeni, möhtəşəm mərhələ oldu.

Ölkə başçısının 2021-ci ili Azərbaycan Respublikasında "Nizami Gəncəvi ili" elan etməsi Nizami Gəncəvini yenidən bizim müasirimiz etdi. Şairin vətəni 365 günü Nizami şeirinin ab-havası ilə yaşadı, Nizami hikməti ilə "qol-boyun" keçirdi.

Keçirilən bayram təntənələrinin ümumxalq vüsəti, şeir məclislərindəki coşqu, "Xəmsə"nin motivləri əsasında hazırlanan tamaşaların uğuru göstərdi ki, qədim şəhər Nizami dühasını yubileydən-yubileyə xatırlamır, hər il, hər gün Nizami şeiri dillərdədir. "Dünyada elə dahi sənətkarlar var ki, onların yubileyləri hər il keçirilməlidir" - ulu öndər Heydər Əliyevin sözləridir.

Şairin vətəni qədim Gəncə şəhəri nüzamisevərlərin görüş yeri oldu, Nizami Məqbərəsinin bir günü də qonaqsız keçmədi. Məqbərə çiçək yağışına büründü.

Nizami Gəncəvinin məzarı üzərinə 1932-ci ildə müvəqqəti xatirə daşı qoyulub. 1940-cı ildə məqbərənin yenidən inşa ediləcəyi nəzərə alınaraq arxeoloji qazıntı işlərinə başlanıb. Ən nəhayət, 1947-ci ildə Nizami Gəncəvinin məzarı üzərində yerli ağ daşdan məqbərə ucaldılıb. Bəzi ölkələrin Nizami Gəncəviyə yiyə çıxmaq iddiası, Moskvanın qısqanclığı dahi şairə əsassız hücumlara qol-qanad verib. Bərbad vəziyyətdə olan qəbirdən çıxarılmış yazılı daş və digər əşyalar, tabutun üzərindən götürülmüş tirmə parça, kitabələr və digər əşyalar müəmmalı şəkildə yoxa çıxıb.

Ulu öndər Heydər Əliyevin Nizami sevgisi, şəxsiyyətinə və yaradıcılığına diqqət və qayğısı dahi şairin milli mənsubiyyətinə, şəxsiyyətinə və yaradıcılığına yönəlmiş hücumları, bütün yanlış fikirləri alt-üst etdi. 1990-cı ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü olarkən vəzifə imkanlarından istifadə edərək Nizami Gəncəvini dahi azərbaycanlı, ölməz gəncəli kimi dünyaya yenidən tanıtdı. Bu yöndə ilk addım dahi şairin məqbərəsinin yenidən qurulması, onun adına, şəxsiyyətinə və yaradıcılığına layiq sənəd məbədinin ucaldılması oldu.

Nizami Gəncəvinin Məqbərəsi ilə üzbəüz Nizami Gəncəvi Muzeyi ucaldılıb. Məqbərədən çıxıb, hər tərəfi yaşıllığa, gül-çiçəyə bürünmüş meydandan keçirsən, dahi şairin büstünə səcdə edib, Muzeyə daxil olursan.

Nizami Gəncəvi Muzeyinin direktoru Könül Süleymanova ilə salonları gəzirik.

Muzeyin sərgi zalı əl-alvan xalçalara bürünüb. Azərbaycanın milli ornamentləri ilə toxunmuş 11 xalça nümayiş olunur. Yundan toxunmuş bu xalçalarda "Xəmsə" nin motivləri əks olunub.

Muzeydə Nizami Gəncəvinin fars dilində yazılmış, 1960-cı ildə Bakıda çap olunmuş "Sirlər Xəzinəsi" kitabı, Nizami Gəncəvinin 800, 840, 850 illik yubileyləri ərəfəsində nəşr etdirilmiş "Xəmsə" və monoqrafiyaları, ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nizami Gəncəvi yubileylərinin keçirilməsi, əsərlərinin tədqiqi və nəşri, məqbərənin bərpası ilə bağlı verdikləri sərəncamlar və qərarlar nümayiş etdirilir.

Cəlaləddin Ruminin 1871-ci ildə çap olunmuş məsnəvisi, Həmid Araslının 1954-cü ildə çap etdirdiyi "Nizami Gəncəvi poemalarından parçalar" adlı monoqrafiyası, 1854-cü ildə İranda çap olunmuş "Xəmsə" nümunəsi, özbək şairi Əlişir Nəvai əsərlərinə həsr olunmuş miniatür toplular muzeyin çox qiymətli eksponatlarıdır.

Orijinalları Misirin İsgəndəriyyə kitabxanasında, ABŞ-ın Metropoliten Muzeyində, Avstriya Milli Kitabxanasında, Bruklin muzeyində saxlanılan XIV-XVI əsr miniatürlərinin surətləri də muzeyin sərgi zalını bəzəyir.

Saltıkov-Şedrinin Rusiya kütləvi kitabxanasında qorunan "Xəmsə" əlyazmaları, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən ölkəmizə gətirilən orijinal "Xəmsə" əlyazmaları, Qurani- Kərimin ən qədim nümunələri də muzeydə nümayiş etdirilən eksponatlar siyahısındadır.

Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nizami Gəncəvi yubileylərinin qeyd olunması, məqbərənin bərpası, əsərlərinin nəşri və tətbiqi ilə bağlı verdikləri sərəncamlar və qərarlar, Nizami Gəncəvinin xələflərinin və sələflərinin fotoları, Nizami məqbərəsinin müasir simasının bərpa işlərinə qədər olan fotoları da muzeydə yerləşdirilmişdir.

"Nimami Gəncəvi ili" çərçivəsində nəşr olunan kitab və monoqrafiyalar muzeyin ekspozisiyasını daha da zənginləşdirib.

Məişət əşyaları guşəsində isə XVI-XIX əsr məişətində istifadə olunan mis və gildən hazırlanan qablar sərgilənir.

Nizami Gəncəvi Muzeyində çox zəngin xatirə kitabı var, vərəqləyib, oxuduqca dahi şairin Məqbərəsini və Muzeyini ziyarət edənlərin təəssüratları, xüsusilə də dünyanın müxtəlif ölkələrindən gəlmiş insanların ürək sözləri qürur hissi doğurur.

Latın Amerikasından olan nümayəndənin yazdıqları ilə siz də tanış olun: "Eşq olsun. Dünya şöhrətli Nizami Gəncəvinin Məqbərəsini ziyarət etdik, hər birimiz üçün qürurverici gün oldu".

Kubalı iş adamlarının ürək sözləri də maraqlıdır: "Hər zaman istəmişik bura gəlib, ziyarət edək. Ziyarətimiz Nizaminin yubileyi ilinə düşdüyü üçün çox xoşbəxtik. Nizami Gəncəviyə ölkə başçısının diqqət və qayğısı xüsusilə diqqətimizi cəlb etdi".

"Nizami ili" artıq başa çatdı. Nizami irsi isə əbədiyaşardır. Ölkə başçısının 2021-ci ili "Nizami Gəncəvi ili" elan etməsi dahi şairin ədəbi irsinin həmişəyaşarlıq məşəli kimi Nizami şeirinin dünənini yenidən işıqlandırdı, bu günü nura boyadı, gələcəyini isə gur işıq selinə bürüyəcək.

"Nizami ili" ölkəmizin hər guşəsində coşqu ilə qarşılandı, şəhər və rayonlarda kütləvi tədbirlər keçirildi, demək olar ki, bütün ölkə Nizami ab-havası ilə yaşadı. Ölkə başçısının Sərəncamı dahi şairin vətəni qədim Gəncə şəhərində Nizami şeirinə, Nizami sənətinə ehtiramın sonsuz ifadəsi kimi qarşılandı. Şəhərin hər bir sakini, işindən, vəzifəsindən asılı olmayaraq bu əlamətdar ilə öz töhfəsini verdi.

İl ərzində həyata keçirilmiş işlərin xronologiyasına baxıram. Bu ilin hər bir günü Nizami şeirinin əks-sədası ilə keçib. Nizami şeir saatları, videokonfranslar, Gəncənin teatr kollektivlərinin Nizami Gəncəvinin əsərlərinin motivləri əsasında hazırladığı onlayn tamaşa və süjetlər, ədəbi-bədii kompozisiyalar, elmi-praktik konfranslar Nizami Gəncəvi şeirinə ümumxalq ehtiramının sonsuzluğundan xəbər verdi. Bu tədbirlər təkcə şəhər miqyası ilə məhdudlaşmadı, ölkəmizin meridianlarını aşdı. Beynəlxalq elmi-praktik konfranslar təşkil olundu. Türkiyə Cümhuriyyətində keçirilən "Uluslararası Kısa Performanslar" festivalında "Xəmsə" ədəbi-bədii kompozisiyasının nümayişi və qazanılan uğur buna ən yaxşı nümunədir.

İl ərzində Nizami Gəncəvinin həyat və yaradıcılığına həsr olunan sərgilər təşkil olundu, təqdimatlar keçirildi, Gəncədəki Nizami "məkanlarına" ekskursiyalarda minlərlə gənc və məktəbli iştirak etdi.

"Nizami ili" çərçivəsində Gəncədə ilk dəfə Muğam müsabiqəsi keçirildi. Üç turdan ibarət olan bu müsabiqə Nizami yaradıcılığının təbliğinin ən yaxşı forması olmaqla neçə-neçə gənc istedadı üzə çıxardı.

AMEA Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin dahi şairin həyatı, nəsil şəcərəsi və bədii irsinə, əsərlərinin yenidən tədqiqi və təbliğinə həsr etdiyi işlər xüsusilə əlamətdardır.

"Nizami Gəncəvi ili" çərçivəsində Bölmə tərəfindən 8 kitab və monoqrafiya nəşr edilib. "Nizami lirikası və...", "Nizami Gəncəvinin şəcərə tarixi", "Nizami Gəncəvi və Azərbaycan xalq yaradıcılığı", "Nizaminin musiqi dünyası", "Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda", "Musiqi Nizami "Xəmsə"sinin səhifələrində", "Nizami Gəncəvi poeziyasının Azərbaycan bəstəkarlarının vokal əsərlərinin təcəssümü" və sair kitab və monoqrafiyalar yubiley ilinə sanballı töhfələr oldu. Elmi-tədqiqat işlərinin nəticələri dahi şairin həyat və yaradıcılığının daha dərindən və əhatəli tədqiqinə sanballı töhfələr verdi, Nizami Gəncəvi kitabxanasını daha da zənginləşdirdi.

AMEA Gəncə Bölməsi bir sıra mötəbər tədbirlərə ev sahibliyi etdi. Heç təsadüfi deyildir ki, AMEA-nın Rəyasət Heyəti Nizami Gəncəvi ilinə həsr olunan zirvə toplantısını Gəncə şəhərində keçirdi. AMEA-nın Mərkəzi Elmi Kitabxanasının elmi-praktik konfransı və sərgi dahi şairin ölməz bədii irsinin təbliğinə sanballı töhfə oldu.

Nizami Gəncəvi yaradıcılığının nüfuzlu tədqiqatçılarından biri, professor Xəlil Yusifli ölkə başçısının dahi şair haqqında Sərəncamını ölməz bədii irsin daha dərindən tədqiqi, təbliği və nəşrində yeni möhtəşəm mərhələ adlandırdı.

Professor söhbət zamanı dedi ki, xalqımız Nizami Gəncəvinin bədii irsinə həmişə dərin hörmətlə yanaşmışdır. Dahi şairin 880 illik yubileyi haqqında ölkə başçısının Sərəncamı onun həmişəyaşar irsinin tədqiqi, təbliği və nəşrində əsaslı dönüş yaratdı. Klassik ədəbi-mədəni irsimizə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyevin Nizami irsinə göstərdiyi diqqəti və qayğı ənənəsi möhtəşəmliklə davam etdirildi. "Nizami Gəncəvi ili" çərçivəsində dövlət səviyyəsində keçirilən silsilə tədbirlər, müxtəlif mərasimlər ölkəmizin mədəni həyatında əlamətdar hadisəyə çevrildi.

Yenə şairin səsi əks-səda verir: "Yüz il sonra sorsan, bəs, o hardadır, hər beyti səslənər: Burda, burdadır..." Neçə yüzilliklər keçəcək, tarix çox minilliklərin şahidi olacaq, bax onda da dahi şairin peyğəmbərcəsinə söylədiyi: "Burda, burdadır" sözləri müasir məna daşıyacaq.

**Vaqif TANRIVERDİYEV,**
**Gəncə.**